

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 98 (23.510)

24 iyun 2020-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 23 iyun tarixli Sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasında çalışan dövlət qulluqçuları da vardır.

**Əliyev Mahir Nəcəf oğlu**
**Əsgərov Bəxtiyar Səyyad oğlu**
**Rəsulov Vaqif Nəcəfalı oğlu**

"Tərəqqi" medalı ilə,

**Abbasov Mahir Hüseyn oğlu**
**Abdinov Orxan Rza oğlu**
**Mahmudov Həsən Məmməd oğlu**
**Məmmədov Məhərrəm Məmməd oğlu**
**Nəbiyev Ramil Aslan oğlu**
**Nuriyev Vəli Talıb oğlu**
**Şərifov Əli Qara oğlu**
**Vəliyeva Vüsalə Səyyad qızı**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişlər.

## Maşınqayırma sənayesinin inkişafı diqqət mərkəzindədir

*Azərbaycanda sənayeləşmə siyasətinin əsası ötən əsrin 70-80-ci illərində ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Həmin dövrdə neft maşınqayırma kompleksi, dəzgahqayırma, elektrotexnika və yol-inşaat maşınları, məişət kondisionerləri və digər sahələr inkişaf etdirilmişdir.*

Ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəlişindən sonra ölkəmizdə, eləcə də muxtar respublikamızda sənaye sahəsi özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Müasir dövrdə iqtisadi, sosial və mədəni sahədəki nailiyyətləri ilə diqqəti özünə cəlb edən Naxçıvan Muxtar Respublikası innovativ və rəqabətqabiliyyətli iqtisadi inkişaf modeli qurmaq yolunda uğurlu nəticələr əldə etmişdir. Bu sahədə görülən işlərin nəticəsidir ki, əvvəllər aqrar sahənin üstünlük təşkil etdiyi muxtar respublikada bu gün artıq ümumi daxili məhsul istehsalında sənaye sahəsi ilk yeri tutur.

1991-ci illə müqayisədə sənaye məhsulunun həcmi 256,3 dəfə artaraq 1 milyard 14 milyon 971 min manatı ötmüşdür. 1991-ci ilin sonuna muxtar respublikada 46 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, ötən dövr ərzində yüksək texnologiyalar əsasında mebel, maşınqayırma, metallurgiya, kimya, mədənçıxarma və yeyinti sənayesi olmaqla, 400-dən çox istehsal sahəsi yaradılmışdır.

Hazırda muxtar respublikada yaradılmış sənaye müəssisələri daxili tələbatı ödəməklə yanaşı, ixracyönümlü məhsul istehsalına da imkan verir. "Gəmiqaya Sənaye Kompleksi", "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqı, Naxçıvan Avtomobil, "Badamlı" Mineral Sular zavodları, "Ləzzət Qida Sənaye", "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli cəmiyyətləri və digər müəssisələrin yaradılması







muxtar respublika sənayesinin növbəti mərhələdə daha dərin şaxələndirmə siyasətinin həyata keçirilməsinə geniş imkanlar yaratmışdır. Yerli istehsal sahələrinin inkişafı nəticəsində muxtar respublikada 383 növdə məhsul istehsal olunaraq 350 növdə məhsula olan tələbatın yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir.

Son illərdə yeni və müasir avadanlıqlarla təchizat, son texnologiyaların tətbiqi maşınqayırma sənayesində yeni məhsulların istehsal imkanını artırmışdır. Hazırda maşınqayırma sənayesində rəqabətqabiliyyətli məhsullar istehsal edilir ki, bu da, əsasən, avtomobil istehsalında özünü göstərir. Bu baxımdan Naxçıvan Avtomobil Zavodu maşınqayırma sənayesinin inkişafında mühüm rola malikdir. 2010-cu ildən fəaliyyətə başlayan zavod nəqliyyat vasitələrinə artan tələbin daxili istehsal hesabına ödənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Burada avtomobil sənayesində tətbiq olunan müasir dizayn, təhlükəsizlik və ekoloji normalara uyğun ən müasir avtomobillər istehsal edilir. İstehsal prosesində Almaniya, İtaliya və Belçikadan gətirilmiş müasir texnoloji avadanlıqlardan istifadə olunur. Bunun nəticəsidir ki, yeni modeldə avtomobillərin istehsalı da artır. Zavodda müxtəlif təyinatlı "NAZ Lifan" markalı avtomobillər istehsal olunur. Bunlardan "Lifan X-70", "Lifan L-7", "FAW T-33" minik və "FAW T-80" model yük avtomobilləri 2020-ci ilin məhsullarıdır. Naxçıvan Avtomobil Zavodunun Naxçıvan və Bakı şəhərlərində satış mərkəzləri, texniki xidmət şöbələri və avtomobillərin ehtiyat hissələrinin satışı mağazaları açılmışdır. Həmçinin muxtar respublikada istismar olunan "NAZ Lifan" markalı minik avtomobillərinin yerində texniki xidmət göstərilməsi məqsədilə Şərur və Culfa rayonlarında avtomobillərin servis mərkəzi yaradılmışdır.

Hazırda ölkəmizdə avtomobil bazarı daha çox xarici ölkələrin istehsal məhsulları hesabına təmin olunsa da, bu sahədə yeni müəssisələrin yaradılması, müştərək müəssisələrin istehsal fəaliyyətinin güclənməsi daxili bazarın yerli məhsullarla təmin edilməsinə şərait yaradır. Dünyanın nəhəng maşınqayırma müəssisələrinin ölkəmizdə öz istehsal sahələrini yaratmaq niyyətlərini gerçəkləşdirməsi isə bu sahənin gələcək inkişafına geniş imkanlar açır. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 19 noyabr tarixli Sərəncamına əsasən hər il iyunun 24-ü ölkəmizdə maşınqayırma sənayesi işçilərinin peşə bayramı kimi qeyd edildiyini xatırladaraq əminliklə vurğulamaq istərdik ki, bu gün peşə bayramlarını qeyd edən, muxtar respublikamızda fəaliyyət göstərən maşınqayırma sənayesi işçiləri bundan sonra da istehsal çeşidlərinin və həcminin artırılması, ixrac potensialının genişləndirilməsi sayəsində səylərini gücləndirməklə bu işə öz töhfələrini verəcəklər.

**Mehparə MƏMMƏDOVA**
*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Elmi-Tədqiqat Tədris Mərkəzinin elmi işçisi*

## Şərur rayonunda Dövlət Bayrağı Meydanı inşa olunur



Bu gün muxtar respublikanın quruculuq xəritəsində bayraq meydanlarının tikintisi də özünə yer alıb. Bu, vüqarımız olan Dövlət bayrağımıza böyük ehtiramın ifadəsidir. Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi, Culfa və Şahbuz rayonlarında yaradılmış bayraq meydanları insanların sevimli ünvanlarına çevrilib.

Müstəqilliyimizin, azadlığımızın, dinimizin, inkişafımızın, tərəqqimizin rəmzi olan bayrağımıza böyük sevginin daha bir ifadəsi isə bu gün Şərur rayonunda Bayraq Meydanının tikilməsidir. Rayonun Yuxarı Daşarx kəndi ərazisində inşa olunan Bayraq Meydanının ümumi sahəsi 3 min kvadratmetrdir. Meydanın mərkəzində hündürlüyü 36 metr olan bayraq dirəyi ucaldılmaqdadır. Dayağın bünövrəsinin diametri 15, üst hissənin diametri isə 4 metr olacaq. Meydanın ətrafında istirahət parkı inşa ediləcək. Burada işıqlandırma sisteminin yaradılması, yaşıllıqlar salınması nəzərdə tutulub.

Tikinti işləri "Gəmiqaya Holdinq" Şirkətlər Qrupunun inşaatçıları tərəfindən həyata keçirilir. Keyfiyyət amilinə ciddi önəm verən inşaatçılar öhdələrinə götürdükləri obyektin tikintisini ilin sonunadək yekunlaşdırmaq əzmindədirlər.

**Xəbərlər şöbəsi**

## Hərbçi ailələrinə xidməti mənzillər təqdim edilib

***Muxtar respublikada ordu, birləşmə və hissələrin döyüş qabiliyyəti, həmçinin maddi-texniki bazası gücləndirilməklə yanaşı, hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqətdə saxlanılır. 26 İyun–Silahlı Qüvvələr Günü ərəfəsində Sədərək rayonundakı 7 mərtəbəli yeni binada "NEQSOL Holdinq" Şirkətlər Qrupu tərəfindən hərbçi ailələrinə xidməti mənzillərin təqdim edilməsi növbəti qayğının ifadəsidir və xalq-ordu birliyinin təcəssümüdür.***

Bu münasibətlə keçirilən tədbirdə Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov çıxış edərək bildirib ki, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə geniş quruculuq işləri aparılan rayonda təhsil və səhiyyə müəssisələri, inzibati və yaşayış binaları, sənaye müəssisələri tikilib, məşğulluq təmin edilib, yeni içməli su və kanalizasiya sistemləri qurulub. Bu gün hərbçi ailələrinə yeni xidməti mənzillərin verilməsi Sədərək rayonunun sosial-iqtisadi inkişafının, məskunlaşmanın artmasının və xalq-ordu birliyinin ifadəsidir.

"NEQSOL Holdinq" Şirkətlər Qrupunun nümayəndəsi Samir Mollayev çıxışında Sədərək rayonunun müdafiəsində ayıq-sayıq dayanan hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılmasında iştirak etmənin hər bir vətəndaşın mənəvi borcu olduğunu bildirib. Yeni mənzillərdə yaşayacaq hərbi qulluqçuları və ailə üzvlərini təbrik edərək xidmətlərində uğurlar arzulayıb.



Tədbirdə xidməti mənzillərin orderləri Əlahiddə Ümumqoşun Ordu komandanlığına, açarları isə hərbi qulluqçulara təqdim edilib.

Əlahiddə Ümumqoşun Ordu komandanının müavini, general-mayor Teymur Eyyubov qeyd edib ki, bu gün ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsi nəticəsində doğma Naxçıvanımız güclü müdafiə qüdrətinə və müzəffər Əlahiddə Ümumqoşun Orduya malikdir. Sədərək rayonunda yeni torpaq sahələrinin ordumuzun nəzarətinə keçməsi və həmin ərazilərin minalardan təmizlənərək əkin dövriyyəsinə qatılması bunu bir daha təsdiq edir.

Mənzillə təmin olunmuş zabit Ələsgər Mehdiyev bildirib ki, zabit-gizir ailələrinin sosial müdafiəsinin gücləndirilməsi dövlətimizin öz ordusuna, hərbi qulluqçulara və ailələrinə göstərdiyi qayğının daha bir ifadəsi, dövlət-xalq-ordu birliyinin nəticəsidir. O, hərbçi yoldaşları adından göstərilən diqqət və qayğını öz xidmətləri ilə doğruldacaqlarına söz verib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı Qadınlar Şurasının sədri Vüsalə Əliyeva hərbçi ailələrini təbrik edərək vurğulayıb ki, bu gün hər bir vətəndaşımız ordumuza güvənərək rahat, sabit və əmin-amanlıq şəraitində yaşayır. Dövlətimiz tərəfindən hərbçi ailələrinin rahat yaşayışının təmin olunması istiqamətində zəruri tədbirlər görülür. Sədərək rayonunda xidmət edən hərbçilərin ailələrinə təqdim edilən mənzillər də dövlət-xalq-ordu birliyindən xəbər verir.

Sonra mənzillərə baxış olub. Məlumat verilib ki, 7 mərtəbəli yeni binada hərbçi ailələrinə təqdim edilən mənzillərin hər biri ikiotaqlıdır və ümumi sahəsi 63 və 75 kvadratmetrdir. Burada bütün kommunal-məişət şəraiti yaradılıb, 2 lift, mərkəzləşdirilmiş anten və fərdi istilik sistemləri quraşdırılıb. Mənzillər müasir mebel dəstləri və bütün növ məişət əşyaları ilə tam təmin olunub.

**Nəriman NƏCƏFOV**

Yeniləşən kəndlərimiz

# Keçmişdən bu günə AĞBULAQ



***Zirvəsi qarla örtülü dağlar, könülaçan sərin yaylaqlar, zəngin və nadir landşafta malik ovalıqlar, çaylar, çeşmələr, bulaqlar, canlı və cansız təbiət inciləri qərinələrdir ki, Azərbaycanı dünyada tanıdır. Ana Vətənimizin belə gözəlliklər məskəni olan diyarımıza insan əli ilə yeni naxışların da vurulması daha təkrarsız və heyrətamiz mənzərələr yaradıb. Bu gün muxtar respublikamızın yeddi şaxəsi kimi müxtəlif istiqamətlərdə yerləşən rayonlarında qədimliklə müasirliyin vəhdəti yaşayır.***





Doğma yurdumuzun füsunkar gözəllik məskənlərindən biri də Şahbuz rayonudur. Bütün yaşayış məntəqələrimizdə olduğu kimi, Şahbuzda da bu gün dövlət qayğısı ilə yaradılan müasir tikililər, el birliyi ilə salınan bağlar, yaşıllıq zolaqları, sözün həqiqi mənasında, ürəkaçandır. Bu cür gözəlliyi, müasirliyi, günü-gündən sürətlə aparılan quruculuq siyasətini onun ən ucqar kəndlərində belə, görmək olar. İnkişaf və tərəqqi ən ucqar dağ kəndlərini elə müasirliyə qovuşdurub ki, illərlə kəndə yolu düşməyənlər bu gözəllik qarşısında heyrətlərini gizlədə bilmir, qısa zaman kəsiyində bu yeniliyin olmasını möcüzə kimi qiymətləndirirlər. Bu, bir reallıqdır ki, indi Şahbuzun hər bir kəndində şəhər ab-havası duyulmaqdadır. Bunu bir zamanlar kənddən uzaq düşənlərin yenidən öz yurdlarına üz tutması da təsdiqləyir. Bu bölgəmizin turizm üçün əhəmiyyəti nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 29 noyabr tarixli Sərəncamı ilə Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi yaradılıb. Bununla bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***"Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılmasında məqsəd muxtar respublikada kənd turizminin bir bölgənin timsalında inkişafına nail olmaq və gələcəkdə digər kəndlərdə də tətbiq etməkdən ibarətdir. Bu gün dünyanın bir çox ölkələrində təmiz ekoloji şəraiti olan, flora və fauna ehtiyatının qorunduğu yerlərdə turizm bölgələri yaradılır. Muxtar respublikada da turizm bölgələrinin yaradılması üçün yerlər mövcuddur. Həmin yerlər içərisində ən əlverişlisi isə Ağbulaq kəndidir".***

Yaxın günlərdə yolumuzu adıçəkilən kəndə saldıq. Bu yaşayış məntəqəsi rayon mərkəzindən 20 kilometr şərqdə, Zəngəzur silsiləsinin yamacında – dağların arasında yerləşir.

Dağların, sanki buludlarla qovuşduğu yerə – Ağbulaq kəndinə çatmağımıza az qalırdı. Avtomobilimiz kəndin aşağısında bir bulağın yanında dayandı. Son illər təmir edilərək "Ağbulaq" adlandırılan bu bulağın suyunun özünəməxsus dadı var. Bir yolun iki səmtə ayrılan qolu üstündəki kəndin ərazisində qərinələrlə yaşı olan müalicəvi əhəmiyyətə malik "Şor su" deyilən bulağın ətrafında yaradılan "Şəfa" bulaq-abidəsi də öz görünüşü ilə bənzərsizdir. Bu bulaq-abidənin ətrafındakı çarhovuza tökülən şor sudan istifadə imkanları yaradılıb. El arasında bu suya "dəri suyu" da deyilir. Bulaqdan üzüyuxarı, kəndin mərkəzinə doğru irəlilədikcə təbiətin fırçası ilə boyanmış kənd mənzərəsinə valeh olmamaq mümkünsüz idi. Maşınımız qara örtüklü, hamar yolla şütüyürdü. İstər-istəməz nənəmin bir zamanlar bu kəndə gediş-gəlişin çətinliyi haqqında dediklərini xatırlayıram. Yalnız bəzi maşınlarla dərəli-təpəli dağ yolu ilə getməyin mümkün olduğu zamanlar kənddən canını qurtarıb rayon mərkəzlərinə, böyük şəhərlərə köçən insanlar, bəlkə də, elə yolların bərbad vəziyyətdə olmasına görə vaxtilə bu addımı atmağa məcbur olublar. Elə bu düşüncələrlə kəndin mərkəzinə doğru irəliləyərkən zövqlə tikilmiş kənd evinin eyvanında oturub dağlardan əsən sərin mehin verdiyi rahatlıqdan zövq alaraq ətrafı seyr edən nənəni görürük.





– Salam, ay nənə, necəsiniz? Qonaq istəyirsinizmi? – deyə ona yaxınlaşırıq. Bu qonaqsevər nənə bizi mehribancasına salamlayır: – Əlbəttə, ay bala, qonaq Allah qonağıdır, buyurun. Bir çayımızı için, – deyir.

Çox keçmədən doğmalaşıb illərdən bəri tanışıq kimi mehribancasına söhbətləşdiyimiz Zəringül nənə Ağbulaq kəndində yaradılan şərait haqqında məqalə hazırladığımızı eşidəndə bildirdi ki, bu gün heç bir ağbulaqlı yaşayış tərzindən narazılıq edə bilməz. Çünki onların uzun illər yaşadığı çətinliklər tamamilə aradan qaldırılıb. Nənə kəndlərinə göstərilən dövlət qayğısından ürəkdolusu danışandan sonra bizə Ağbulağın dillər əzbəri olan bulaqlarından, qalalarından söhbət açır. Yazımın əvvəlində adını çəkdiyim "Şəfa" bulaq-abidəsi (Şor su) haqqında deyir ki, insanlar uzun illərdir ki, buradakı sudan dəri-zöhrəvi xəstəliklərinin müalicəsində istifadə edirlər. Hətta uzaq yerlərdən belə, bu suyun sorağına gələnlər var. Elə bu bulaq suları, dağlarımızın təmiz havasıdır bizləri bu yaşda belə gümrah saxlayan. Elin varı, başqa təbii sərvətlərimiz kimi, buz bulaqlarımız da dövlətimizin qayğısından kənarda qalmır. Bunun nəticəsidir ki, bulaqlarımız təmir olunaraq kəndlilərin, gələn qonaqların istifadəsinə verilir. Əyləşdiyimiz eyvandan açıqca görünən Toxluqaya, Gəlinqaya kimi təbiət abidələrindən də söhbət açan müsahibim qeyd edir ki, bu qayalar, sanki əl-ələ verib düşmənə sinə gərir. Ağbulaq kəndinin sakinləri də düşmən qarşısında həmişə mərd, dözümlü olublar. Kəndin kişiləri nizami ordumuzun olmadığı vaxtlarda belə, düşmənlərin sərhədlərimizi pozmasına heç zaman aman verməyiblər. Adət-ənənələrimizə gələndə isə, ay qızım, hər bir elin, obanın özünəməxsus adət-ənənəsi var. Ağbulaqlılar da dədə-babadan qalma adət-ənənələrimizə sadiqdirlər və bu gün də onları qoruyurlar.

Söhbətimizin bu yerində yaşı 80-i haqlayan Şamo baba da bizə qoşulur. Deyir ki, Ağbulaq bu gün müasir Azərbaycan kəndinin canlı nümunəsidir. Burada fəaliyyət göstərən bütün dövlət qurumları üçün yaradılmış şərait bir yaşayış yerinin timsalında insana qayğının ifadəsidir. Qalır ki, hər bir sakin yaradılmış şəraitdən lazımınca istifadə etsin, muxtar respublikanın sosial-iqtisadi inkişafına töhfəsini versin. Kəndimizin sakinləri də torpağa bağlı adamlardır, zəhmətdən qorxmurlar. Odur ki, kənd təsərrüfatını inkişaf etdirir, həm daxili bazara töhfələrini verir, həm də özlərinin gün-güzəranlarını yaxşılaşdırırlar. Biz bu gün torpaqlarımızı göz bəbəyimiz kimi qorumalıyıq, təbiətimizin əsasını təşkil edən və oksigen mənbəyi olan yaşıllıqların artırılmasını qarşımızda duran ən vacib məsələ bilməliyik. Çünki təbiətlə daim üzbəüz olan insan başa düşməlidir ki, bu səxavətli, əliaçıq varlıq yaşam üçün insana hər şey verir. Çəkilən yol da, salınan körpü də, adicə kiçik bir arx da, tikilən nəhəng zavodlar, binalar da, hətta balaca bir daxma da təbiətin bir parçası olan torpaqdan istifadə nəticəsində reallaşır. Buna görə də torpaq adlı nemətin, kainatın əsası olanın yetirdiyi, bitirdiyi bütün nemətlərin qədrini bilməliyik ki, yüksək məhsul bolluğu yaradaq.

Bu səmimi ailə ilə söhbətimiz bizdə yüksək əhval-ruhiyyə yaratdı. Belə xoş təəssüratla kəndin sosial obyektlərinə tərəf yol aldıq. İnzibati ərazi dairəsi üzrə nümayəndəlikdən öyrəndik ki, bu yaşayış məntəqəsində 2013-cü ildə kənd mərkəzi istifadəyə verilib. Mərkəz ikimərtəbəlidir. Kənd mərkəzində Ağbulaqda fəaliyyət göstərən bütün təşkilatlar üçün hərtərəfli şərait yaradılıb. Yerli əhaliyə göstərilən tibbi xidmətin səviyyəsini yaxşılaşdırmaq məqsədilə həkim ambulatoriyası üçün də otaqlar ayrılıb.

Kəndin xidmət mərkəzinin qarşısında sakinlərdən bəziləri ilə həmsöhbət olduq. Onlardan Faiq Cəfərovun fikirlərini oxucularımıza çatdırmaq istəyirik:

– Ay qızım, kəndli bu gün yaradılan gözəl şəraitdən başqa nə istəyə bilər ki? Bu şəraitdən lazımınca faydalanırıq. Təsərrüfatımızda heyvandarlıq, maldarlıq, arıçılıq, bağçılıqla məşğul oluruq. Ərsəyə gətirdiyimiz məhsullardan həm özümüz istifadə edir, həm də təşkil olunan kənd təsərrüfatı yarmarkalarına, festivallara çıxarırıq.

Ağbulaq kənd tam orta məktəbinin binası da yenidən qurulub. Burada savadlı, intellektual qabiliyyəti yüksək olan şagirdlərin yetişməsi üçün hər bir şərait vardır. Məktəbin müəllimləri təhsildə mövcud vəziyyətlə bağlı müvəqqəti fasilə yarandığı bir vaxtda belə, şagirdlərə yüksək bilik vermək üçün əllərindən gələni əsirgəmirlər.

Kənd adamları ilə sağollaşıb üz tuturuq Ağbulaq İstirahət Mərkəzinə. Burada bizə mərkəzin icraçı direktoru Xalid Kazımov bələdçilik edir. O deyir ki, mərkəz 2013-cü ildə istifadəyə verilib. 2019-cu ilin son aylarından isə mərkəzimizdə kanat, xizəkçilik və kartej kimi istirahət növləri də yaradılmağa başlanılıb. İnsanlar burada həm günlük istirahət edə, həm də vaxtları çərçivəsində mərkəzin otel bölməsində qalaraq kəndlə yaxından tanış ola bilirlər. Mərkəzdə tələbələrin, şagirdlərin yay və qış məktəbləri, dövlət qulluqçularının həftəsonu istirahətləri də təşkil olunur. Müraciət edənlər arasında Azərbaycanın bütün bölgələri ilə yanaşı, qonşu İran, Türkiyə və digər dövlətlərdən də nümayəndələr olur. Elə söhbətimizin bu yerində mərkəzdə istirahət edən bir ailənin üzvləri diqqətimizi çəkir. Yaxınlaşıb tanış oluruq. Öyrənirik ki, onlar əslən Şahbuz rayonundan olsalar da, Naxçıvan şəhərində yaşayan Tağı Məmmədovun ailəsidir. Tağı müəllim bildirir ki, kəndin təmiz havası, sərin suları ilə yanaşı, bu mərkəzdə milli dəyərlərimizi tanıtmağa hesablanmış guşələr də onların diqqətini cəlb edib. Həmin lövhədə mərkəzin işçisi olan Əsli Tahirovanın toxuculuqla bağlı əl işləri və xalçaçılıq nümunəsi millilik və sənətkarlıq baxımından fərqlənir. Bundan başqa, oxunması zəruri olan kitablar da mərkəzdə xüsusi guşədə sərgilənir. Guşədə muxtar respublikamızın inkişaf tarixindən bəhs edən materiallar daha çox diqqəti cəlb edir.

Bakı şəhərindən muxtar respublikamıza qonaq gələn Səyyad Babayev də İstirahət Mərkəzi və Ağbulaq kəndinə heyranlığını dilə gətirir:

– Karantin rejimi ilə əlaqədar burada planlaşdırdığımdan da çox qalası oldum. Lakin havası da, suyu da dərdlərə dərman, xəstəliklərdən uzaq belə bir gözəl, saf təbiətin qoynunda olmaqdan heç də heyifsilənmirəm. Üstəlik, yaşayış üçün istənilən şərait də yaradılıb. Növbəti illərdə də burada istirahət etməyi planlaşdırıram.

*Bu gün böyük qürur hissi ilə qədim diyarımızın daha bir yurd yerini gəzib-dolandıq. Onu da qeyd edim ki, bu kənddə ailə qanunları, ədəb-ərkan qaydaları ciddi qorunur. Milli dəyərlər, el sənətkarlığı böyük həvəslə təbliğ olunur. Soy-kökünə bağlı insanlar öz davranışları ilə gənclərə nümunədirlər. Uzunömürlülər diyarı kimi də tanınan Ağbulağın ağsaqqalları, ağbirçəkləri böyük hörmət sahibidirlər. Ziyalısı da, fəhləsi də, əkinçisi, heyvandarı, çobanı da milli dəyərlərimizi qoruyub yaşadır kəndlərində. Ağbulaqda hər bir mərasim milliliyə söykənir. Bunu görmək üçün bircə dəfə kəndin ya toy, ya hüzr mərasimində olmaq kifayətdir. Dövlət qayğısının günü-gündən çoxalması isə insanlarda yurd sevgisini, torpağa məhəbbəti daha da artırır.*

**Telli MƏMMƏDOVA**

## Nehrəm qəsəbəsində və Araz kəndində içməli su və kanalizasiya xətlərinin tikintisi davam etdirilir

*İnsanların həyat səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər sırasında içməli su təminatı xüsusi yer tutur. Son illər muxtar respublikada yeni su mənbələrinin və su təchizatı infrastrukturlarının istifadəyə verilməsi, membrantipli sutəmizləyici qurğuların quraşdırılması və əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün bir sıra vacib addımlar atılır, genişmiqyaslı layihələr həyata keçirilir.*



Belə ki, 2012-ci ildən həyata keçirilən "Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində su anbarları, magistral kanallar və digər su təsərrüfatı obyektləri tikilib istifadəyə verilir, su boruları yenilənir, suyun bütün sakinlər arasında düzgün paylanması və bərabər səviyyədə ödənilməsi istiqamətində işlər davamlı xarakter daşıyır. 2020-ci ilin yanvar-may aylarında 26,8 kilometr su, 15,1 kilometr kanalizasiya xətti çəkilib. Hazırda bu layihə Babək rayonunun Nehrəm qəsəbəsi və Araz kəndində davam etdirilir. Layihə çərçivəsində həmin ərazilərdə, ümumilikdə, 84,8 kilometr uzunluğunda su xətti, 60,5 kilometr kanalizasiya xətti çəkilib, 2755 su ev birləşməsi və 788 kanalizasiya ev bağlantısı aparılıb. Tikinti işləri aparılarkən keyfiyyətə xüsusi diqqət yetirilir.

Tikinti işlərinin icrası başa çatdıqdan sonra Nehrəm qəsəbəsində və Araz kəndinin su təchizatındakı problemlər tamamilə aradan qaldırılacaq və 17 mindən artıq sakin keyfiyyətli və dayanıqlı içməli su ilə təmin olunacaq. Əhalinin sosial rifah halının yüksəlməsinə hesablanmış içməli su və kanalizasiya layihələrinin vaxtında və keyfiyyətlə icrası məqsədilə görülən işlər bundan sonra da davam etdiriləcək.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

Turizm

# Təbii sərvətlərimiz muxtar respublikamızın müalicə və kurort turizmi sənayesinə yeni imkanlar açır



***Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri iqtisadiyyatın xammal bazası olmaqla yanaşı, həm də turizm potensialını formalaşdırır. Sovetlər Birliyinin tərkibində olduğumuz zaman bu potensialın qısa müddətdə gəlirgətirən subyektlərindən istifadə olunsa da, burada lazımi infrastruktur yaradılmayıb. Yalnız müstəqilliyimizin bərpasından sonra bütün ölkəmizdə olduğu kimi, qədim diyarımızda da xalqımız öz sərvətlərinin sahibi olub.***

Qeyd edək ki, Naxçıvanın turizm-rekreasiya coğrafiyası çoxşaxəli və genişdir. Ərazidə fərqli landşaft tiplərinin və iqlim qurşaqlarının mövcudluğu, həmçinin tərkib xüsusiyyətlərinə görə dünyada analoqiyasına az rast gəlinən təbii sərvətlərə malik olması bu qədim diyarın turizm cəlbediciliyini artırır. Məlumdur ki, bu gün dünya turizmi çox şaxələnib. Hər il yeni turizm trendləri ortaya çıxır və bu trendlər kütləvi marağı qoruyub saxlaya bilirsə, özlüyündə bir sahəni formalaşdırıb inkişaf etdirir. Ancaq turizmdə bir sahə də vardır ki, insanlar ona hər zaman ehtiyac duyurlar. Bu, müalicə turizmidir.



Müalicə turizmi son illərdə dünyada sürətlə inkişaf edir. Bunun da müəyyən səbəbləri var. Sadə məntiqlə yanaşsaq, elmi və texnoloji inkişafın müəyyən nəticələri Yer kürəsindəki təbii proseslərin nizamını pozduğundan canlı aləm getdikcə daha çox təhdidlərlə üz-üzə qalır. Bu da nəticədə, müxtəlif xəstəliklərin inkişafına və yayılmasına səbəb olur ki, məhz burada insanların müalicə almalarına, sağlamlıqlarına qovuşmalarına böyük ehtiyac yaranır. Bu gün dünyanın əksər elmi-tədqiqat institutları, tibb cəmiyyətləri də etiraf edirlər ki, müasir dövrdə xəstəliklərin və xəstə olanların sayı bundan əvvəlki onilliklərlə müqayisədə xeyli artıb. Lakin tibbin inkişafı, bu sahədəki infrastruktur və təbii potensial mənbələri dünyada bərabər yayılmadığından insanların müalicə turizmi üçün bir ölkədən digərlərinə müəyyən axını baş verir. Elə müalicə turizminin də ayrı-ayrı ölkə və regionlar üzrə inkişaf etməsinin səbəbi budur. Digər tərəfdən baxsaq, müalicə turizmi özündə istirahət amilini birləşdirsə də, burada məcburilik əsas xarakter daşıyır. Yəni bu gün istənilən insan istirahət məqsədilə hər hansı bir ölkəni seçməkdə azad olsa da, müalicə turizmində bu seçim bir qədər məhduddur. Çünki burada şəxsin əsas məqsədi müalicə almaq olduğundan o ən yaxşısını seçməlidir və bu seçimi digərləri ilə əvəz etmək o qədər də asan deyil. Məsələnin başqa bir maraqlı tərəfi isə odur ki, müalicə turizmindən yararlananlar digər turistlərlə müqayisədə getdikləri ölkədə daha çox qalırlar, yəni buna məcburdurlar. Bu isə müalicə turizmi potensialına malik ölkələrdə həm də ümumi turizm infrastrukturunu inkişaf etdirməyə ehtiyac yaradır ki, nəticədə, qazanan həmin ölkənin iqtisadiyyatı olur.

Naxçıvan Muxtar Respublikası da, yuxarıda qeyd etdiyimiz kimi, mühüm turizm potensialına malik bölgələrdəndir. Muxtar respublika turizmində öndə gedən sahələrdən biri də müalicə turizmidir. Fəaliyyəti 40 ildən artıq bir dövrü əhatə edən Duzdağ Fizioterapiya Mərkəzi bu sahədə ilklərdəndir. 1979-cu ildən insanların sağlamlıqlarının keşiyində dayanan bu müalicə ocağı ilk dövrlərdə lazımi şəraitə malik olmasa da, müstəqilliyimizin bərpasından sonrakı dövrdə, xüsusilə 2008-ci ildən burada pasiyentlər, tibbi və



digər personal üçün müasir şərait yaradılmışdır. Hər il orta hesabla 3500-4000 pasiyentin müalicə aldığı bu mərkəzə Azərbaycanın müxtəlif bölgələri ilə yanaşı, Türkiyə, Gürcüstan, Ukrayna, İran, Rusiya, Tacikistan, Qazaxıstan, Almaniya, Hollandiya, Avstriya, İngiltərə kimi xarici ölkələrdən də yuxarı tənəffüs yolları xəstəliklərinin müalicəsi üçün gələnlər az deyil. Duzdağa gələnlər bu gün artıq Naxçıvanın da qədim tarixi, zəngin mədəniyyəti ilə tanış olmaq imkanlarından yararlanırlar. Eyni zamanda Duzdağ təkcə müalicə məqsədli deyil, həm də Naxçıvanın qədim şəhər mədəniyyətini özündə əks etdirən tarixi obyekt kimi turistlərin diqqətini cəlb edir. Bu amil nəzərə alınaraq son illər burada Duz Muzeyi də yaradılıb. Yeri gəlmişkən muxtar respublikada publik hüquqi şəxs statusu almış ilk səhiyyə ocaqlarından biri də bu mərkəzdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı sərəncamla 2017-ci ilin dekabr ayında Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Duzdağ Fizioterapiya Mərkəzinə publik hüquqi şəxs statusu verilib ki, bu da müalicə olunmaq istəyən insanların artan tələbatının ödənilməsinə yeni imkanlar açıb.

Muxtar respublikanın müalicə turizmində əhəmiyyətli rol oynayan amillərdən biri də burada müxtəlif kimyəvi tərkibə və temperatura malik çoxsaylı mineral su mənbələrinin olmasıdır. Naxçıvanda qeydə alınmış 250-dək mineral su mənbəyindən hər gün milyon litrlərlə su axır. Hələ qədim zamanlardan yerli sakinlər bu suların müalicəvi xüsusiyyətindən faydalanaraq, onlardan müxtəlif xəstəliklərin müalicəsi üçün istifadə ediblər. Belə əhəmiyyətli su mənbələrindən biri də Culfa rayonunun ərazisində olan Darıdağ suyudur. Bu su əzələ sistemi, sümük-oynaq, həmçinin xalq arasında "duzlaşma" adlanan xəstəliklərin müalicəsində geniş istifadə olunur. Həmçinin Darıdağ suyu qanyaradıcı xüsusiyyətə malik olub, qan dövranı üzvlərinin fəaliyyətinə müsbət təsir edərək periferik qanın morfoloji tərkibini yaxşılaşdırır – leykositlərin faqositoz qabiliyyətini artırır, qanazlığını aradan qaldırır. Daxili ifrazat sistemini fəallaşdırır, vegetativ sinir fəaliyyətini gücləndirməklə mədə, qaraciyər, böyrək və ürək əzələsində mübadiləni sürətləndirir, onların funksional vəziyyətini normallaşdırır. Bu xüsusiyyətlərinə görə Darıdağ suyu mədə, öd kisəsi, qaraciyər və vegetativ sinir sistemi ilə əlaqəli başqa xəstəliklərin də müalicəsində geniş tətbiq edilir. Suyun bu cür müalicəvi xüsusiyyətləri nəzərə alınaraq hələ Sovetlər Birliyi dövründə burada Darıdağ Arsenli Su Müalicəxanası yaradılaraq fəaliyyətə başlayıb. 2005-ci ildə isə müalicəxana yenidən qurulub, xəstələrin müayinə və müalicəsi üçün burada lazımi şərait yaradılıb. 2017-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamı ilə bu səhiyyə müəssisəsinə də publik-hüquqi şəxs statusu verilib. Xatırladaq ki, müalicəxanaya hər il Türkiyə, Gürcüstan, Rusiya, Ukrayna, Hollandiya, Qazaxıstan və digər ölkələrdən yüzlərlə insan gəlir. Artan tələbat və müasir səhiyyə xidmətlərinin tətbiqi məqsədilə 2019-cu ilin mart ayından müalicəxana üçün yeni binanın tikintisinə başlanılıb. İşlər başa çatdırıldıqdan sonra burada pasiyentlərə müasir səhiyyə xidmətləri göstəriləcək. Darıdağ Arsenli Su Müalicəxanasının müasir kompleksdə fəaliyyətə başlaması muxtar respublikada termal turizmin inkişafında yeni bir mərhələ olacaq.

*Təbii ki, muxtar respublikanın səfalı təbiəti, əlverişli iqlim qurşaqlarına malik olması bir çox bölgələrimizdə dağ-kurort turizmi sənayesinin inkişafına şərait yaradır. 2013-cü ildə Şahbuz rayonunda Ağbulaq İstirahət Mərkəzinin fəaliyyətə başlaması bu istiqamətdə ilk addımlardan olub. Müalicə turizminin infrastrukturu baxımından yuxarıda adıçəkilən obyektlərin hərtərəfli fəaliyyəti kurort turizmi imkanlarının genişlənməsinə də öz töhfəsini verəcək. Çünki gözəl təbiət, zəngin flora, təbii su mənbələri və təmiz hava özü bir müalicədir. Bu isə Naxçıvan ekoturizmində yeni marketinq yanaşmalarının tətbiqini və yerli resurslardan səmərəli istifadəni zəruri edir.*

✍ Səbuhi HƏSƏNOV

Yeni nəşrlər

# Vəsflə keçən ömrün misraları

*Müasir dövr Naxçıvan ədəbi-ictimai fikrinin sayılıb-seçilən nümayəndələrindən hesab olunan Muxtar Qasımzadənin bu günədək bir neçə şeirini oxusam da, yaradıcılığı barədə elə də müfəssəl məlumata malik deyildim. Ta ki "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yenicə işıq üzü görən "Seçilmiş əsərləri"ni nəzərdən keçirənədək...*



Kitabda yer alan ədəbi nümunələri mütaliə etdikcə doğma elinə, obasına, yurduna bağlı bir ömrün fraqmentləri obrazlı şəkildə keçir gözümün önündən. Böyükdən-kiçiyə hər kəsin dilində danışır, bədii ifadə gücü ilə oxucunun ruhunu oxşayır, mövzunun dərinliklərinə doğru cığır açıb məğzi, mahiyyəti ortaya qoyur, Oğuz torpağının dünənindən, bu günündən söhbət açır nəşrdəki misralar. Elə kitabın ilk səhifəsində yer alan "Dünya görüş yeridi" adlı şeirlə qələm sahibinin söz dünyası qapılarını açaraq görüşünə dəvət edir oxucusunu:

*Əmanət məktubu kimi*
*Oxunub, bitirik,*
*Bilmədən doğuluruq*
*İstəmədən yığışıb gedirik*
*"Dünya duracaq yer deyil..."*
*Dünya görüş yeridi, dostum...*

Bu misralarla şair yaşadığımız fani dünyanın görüş yerinə bənzədərək insanları ən ülvi, ali keyfiyyətlər sayılan dostluğa, mehriban münasibətə səsləyir. Dərindən düşünüb ətrafda baş verənləri, olanları-keçənləri xarakterizə etdikcə müəllifin sözlərinə haqq qazandıraraq, doğrudan da, Uca Yaradan tərəfindən yazılan əmanət məktubuyuq, – deyirsən. Kiminə vərəqi çox, kiminə az "ömür kitabı" düşsə də, hər gün bir səhifəsi oxunaraq gec-tez bütün əsərlər bitməyə məhkum olduğu kimi. Məhz buna görə də bizə bəxş olunan bu qısa həyatı təkcə bu gün üçün deyil, gələcək naminə də faydalı işlərə həsr etməliyik ki, xoş təəssüratlarla xatırlana bilək. Şair "Ümid işığı", "Çağırış", "Ürək saatım", "Gülüzlü Günəş" şeirlərində insani duyğuları, hissləri gözəl təşbehlərlə ifadə edərək mənəvi aləmin inikasını yaradır. "Naxçıvanım" şeirində "könül dostu" adlandırdığı doğma torpağının sözlə rəsmini çəkir:

*Bu çeşmədən su içənlər*
*qovuşandır fəzilətə,*
*Həzrəti Nuh məqbərəsi*
*ehtişamdır hər millətə.*
*Gəmiqaya kürsüsündən*
*bəyan edib neçə qitə*
*Eraların qapısıdır*
*Azərbaycan – öz ünvanım,*
*Ata yurdum, Ana yurdum*
*könül dostu Naxçıvanım.*

Yaradıcılıq dünyasına bələd olduqca dərk edirsən ki, Muxtar Qasımzadə üçün doğulduğu torpaq könlünün pərvanəsi, yoluna nur saçan gözəlliklərlə dolu bir məkandır, məRdir, mətindir, əməl dostudur. Misralardan boylanır Naxçıvanın müsibətlərin, bəlaların fonunda şan-şöhrətlə dolu qəhrəmanlıq tarixi, qürur duyulur Əcəmidən, müdrik öndər Əlisoydan, bəndlər söhbət salır "Kitabi-Dədə Qorqud" dastanından, Atabəydən, Hinduşahdan. "Vətən sevgisi", "Vətən desəm", "Azərbaycan-Türkiyə" şeirlərində Vətənə məhəbbət, torpağa bağlılıq hisslərini tərənnüm edən müəllif ürəyin məhəbbət xəritəsində ən böyük dövlətini "Vətən sevgisi" adlandırır. Kitabdakı "Haçadağ", "Yaddaş çırağı", "Əshabi-Kəhf", "Fərhad evi", "Gəmiqaya", "Əlincə", "Babək qalası" şeirlərini mütaliə etdikcə qədim Oğuz yurdunun tarixi keçmişinə sehrli misraların bələdçiliyi ilə səyahətə çıxırsan.

*Səngər ağuşları otaq-otaqdı,*
*"qumbara" daşları qalaq-qalaqdı.*
*Badam ağacları üstündə bağlı,*
*Sehrli ormandı Babək qalası.*

Nəşri vərəqlədikcə müəllifin öz daxili aləmini, duyğularını dilə gətirdiyi ədəbi nümunələrdən "Ürək ağrıyırsa...", "Mən sakit olanda...", "Darıxanda", "Söykəndiyim ağaclar" dərin məzmunu ilə oxucunu cəlb edir. Şairə görə, ürəyin ağrıyırsa, demək, həyatdasan, yaşayırsan, kiminsə qeydinə qalırsan, sakitlikdə də bir hayqırtı, bir səs-küy var, əslində. Bəzən ətrafındakıların, çoxluğun içində belə, darıxa bilirsən, söykəndiyin ağaclar isə elə atan, anan, bacın, qardaşın olur.

Kitabda zəhmətkeş adamların həyat tərzinə, yaşayışına sirayət edən "Fəhlə səması" poeması da olduqca diqqətçəkicidir. Əvvəldə də qeyd olunduğu kimi, bu ədəbi nümunə Naxçıvanın inşaat sahəsində çalışan əməksevər insanlara həsr edilib, müstəqillik illərində həyata keçirilən quruculuq işləri öz bədii əksini tapıb.

*Uşaqkən damında durduğu evlər,*
*Nəhəng binaların dibində yatır.*
*Dünən xəyalında qurduğu evlər,*
*Bu gün əlləriylə göylərə çatır.*

Şairin ayrı-ayrı illərdə qələmə aldığı nümunələr musiqiçilərin də diqqətini çəkib, nəşrdə yer alan "Bilərəm", "Vətən nəğməsi", "Harda qaldın", "Həmin qızsan" şeirlərinə tanınmış bəstəkarlardan Əkrəm Məmmədli, Nazim Quliyev, Kamal Əhmədli və digərləri musiqi də bəstələyiblər.

Kitabda şairin müxtəlif dövrlərdə "Şərq qapısı" qəzetində dərc olunan məqalələri, eləcə də müəllif haqqında qələmə alınan yazılar, akademik İsa Həbibbəyli, Xalq yazıçısı Hüseyn İbrahimov, filologiya elmləri doktoru Adil Bağırov və digərlərinin Muxtar Qasımzadə yaradıcılığı barədə söylədiyi dəyərli fikirlər də öz əksini tapıb. Ümumilikdə, yeni nəşr vəsf etməklə keçən bir ömrün həyata baxışını, real, mənəvi dünyada baş verənlərə yanaşma tərzini, doğma diyarımızın keçmişdən bu günə gəldiyi keşməkeşli yolların enişini, yoxuşunu, tərəqqisini, inkişafını poetik şəkildə əks etdirir.

✍ Nail ƏSGƏROV

# Əmək yarmarkası keçirilib

Şərur rayonunda keçirilən növbəti əmək yarmarkasında rayon Məşğulluq Mərkəzinin direktoru Samir Qasımov çıxış edərək qeyd edib ki, rayonda sahibkarlığın inkişafı üçün yaradılmış münbit şərait, tikinti-quruculuq tədbirlərinin geniş vüsət alması, yeni istehsal sahələrinin yaradılması əhalinin məşğulluq məsələlərinin həll olunmasına müsbət təsir göstərir.

Rayon İcra Hakimiyyəti başçısının müavini Anar Zeynalov bildirib ki, həyata keçirilən tədbirlər nəticəsində iqtisadiyyatın inkişaf etdirilməsi ilə yanaşı, əhalinin məşğulluq probleminin həll olunması təmin edilir, bu istiqamətdə işlər davamlı xarakter daşıyır.

Sonra əmək yarmarkasına gələnlər ayrı-ayrı idarə və müəssisələr, özəl qurumlar tərəfindən çıxarılmış yeni iş yerləri ilə tanış olub, ixtisaslarına və istəklərinə uyğun seçim ediblər.

Məlumat üçün bildirək ki, növbəti əmək yarmarkasında rayonun 11-i dövlət, 29-u özəl olmaqla, ümumilikdə, 40 idarə, müəssisə və təşkilatı tərəfindən vətəndaşlara 278 boş iş yeri təklif olunub, 36 nəfərə işə göndəriş verilib. Həmçinin 14 nəfərin özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyat aparılıb.

Xəbərlər şöbəsi

# Ailə dəyərləri: valideynlik missiyaları...

## Mirzə Ələkbər Sabirin təbirincə desək, “Həqiqi ananın ən şərəfli bəzəyi ədəbli, tərbiyəli cocuqdur”

***Ailə kiçik bir dövlətdir qənaətini hər eşidəndə onun dövlətlə eyni statusa qoyulması mənə inandırıcı gəlmirdi. Ancaq zaman keçdikcə ailəni, nəinki kiçik, hətta böyük dövlət kimi də qəbul etdim. Təhlilə çəksək, ailə ilə dövlətin bənzər istiqamətləri olduğunu görərik. Ailənin başçısı ata evin idarə edəni, böyüyü, ailənin xoş gün-güzəranını düşünən, gecə-gündüz çalışaraq qazandığı əməkhaqqının son qəpiyinə kimi ailəsi üçün xərcləyən missiyasındadır. Ailənin ikinci statuslu nümayəndəsi hesab olunan ana evi qurub-yaradan, uşaqların qayğısına qalan, onları böyüdüb gözəl tərbiyə edən, təhsilləri ilə maraqlanan müqəddəs varlıqdır. Övladlar isə böyüklərinə itaət edib, onların buyurduğu yolla gedərək ailə başçılarına hörmət qoyan, firavan gələcək üçün çalışanlardır.***

Sağlam ailə, öz növbəsində, sağlam cəmiyyət deməkdir. Bu dövlətin təməlləri düzgün qurularsa, gələcəyi şübhə altında olmaz. Çünki ailə milli dəyərlərin təməlidir. ***“Ailə xüsusi, mürəkkəb insan münasibətləri aləmidir. Burada böyük bir nəzakət, həssaslıq, şəxsiyyətin ləyaqətinə, ailənin mənafeyinə, hörmət və ehtiram lazımdır”***, – deyən ümummilli lider Heydər Əliyev ailə siyasətinin formalaşmasında mühüm tədbirlər görmüş, ailə münasibətlərini tənzimləyən zəngin hüquqi baza yaratmışdır. Azərbaycan Respublikasının Konstitusiyasının 17-ci maddəsində cəmiyyətin özəyi kimi “Ailə dövlətin xüsusi himayəsindədir”, 34-cü maddəsində isə “Hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır” kimi müddəalar öz əksini tapır. Bununla dövlət ailənin müdafiəsinə, onun sosial quruluşunun və nüfuzunun qorunmasına təminat vermişdir. 1999-cu ildə ailə münasibətlərinin tənzimlənməsini özündə əks etdirən Ailə Məcəlləsi hüquqi sənədinin qəbul edilməsi də mühüm əhəmiyyətə malikdir.



*“Ailə dəyərlərimiz film və fotolarda” mövzusunda keçirilən müsabiqəyə (2018-ci il) təqdim olunan foto. Müəllifi Zaur Haşımov*

Sosial politologiya elminin dərinliyinə getsək, görərik ki, illərlə qoruyub saxladığımız adət-ənənələrimizin də əsası ailədən başlayır. “Kitabi-Dədə Qorqud” dastanında ailə dəyərlərindən geniş bəhs edilib. Oğuzlarda ailə quruculuğunun məzmunu evlənmə mərasimində bəylə gəlinin bir-birini bəyənmələri valideynlərinin razılığı, xeyir-duası üstündə qurulub. Qadını Dirsə xana deyir: “Xan babamın göygisi, Qadın anamın sevgisi, Atam-anam verdiyi, Göz açuban gördüyüm, Könül verüb sevdiyim”. Bu ifadələrdən aydın olur ki, ailə həyatı qurmaqda mütləq ata-ananın izni olmalıdır. Həmçinin dastanda diqqətçəkən digər məqam Baybörə oğlu Bamsı Beyreklə Baybican qızı Banuçiçəyin bir-birini bəyənib qəbul etmələridir. Yəni dastanda xoşbəxt ailə üçün zəruri olan şərt bəy-gəlin və qayınana, qayınata həmrəyliyi ardıcıl verilib. Burada qorunub saxlanan ailə dəyərlərinin fərqli məqamları yer alıb.

Tarixən milli-mənəvi dəyərimizin saxlanc yeri olan ailənin əsas atributları valideynlər hesab edilib. Çünki valideyn böyük hörmət sahibi, ailə məsələlərinin həllediсisidir. Valideyn statusuna malik olan üzvlər tarixən ailə dəyərlərini sahib çıxan, onu təbliğ edən nümayəndələr olublar. Onlar bizim baş tacımız, sözünü dinlədiyimiz müqəddəs varlıqlar hesab edilib hər zaman. Milli dəyərlərimiz anaya, ataya itaət etməyin vacibliyini göstərib. “Qurani-Kərim”də də “Ana müqəddəsdir”, “Cənnət anaların ayaqları altındadır”, “Ataya ibadət Allaha ibadətdir” kimi qiymətli fikirlər yer alıb. Fədakarlıq rəmzi olan valideynlik hər zaman təkrarsız qayğı təcəssümü olub hər birimiz üçün.

Amma bu dəyərləri yetərincə qiymətləndirməyənlər də var. Milli dəyərlərimizi yaşadaraq övladlarını tərbiyə edən ozamankı valideynlərlə bugünkü Avropa mədəniyyətindən təsirlənən bəzi valideynləri müqayisə etsək, bir sıra nöqsanların olduğunu aydın görərik. Sevən cütlüklərin korkoranə ailə həyatı qurmasından söz açaq. Əvvəla, ailə həyatı quracaq şəxsə bu barədə ətraflı məlumat verilməlidir. Məsələn, o zamanlar analar qızlarını ərə verərkən deyərdilər ki, ailə kiçik dövlətdir. İki şəxsin yolunu, adət-ənənələrini “birləşdirib” ömür-gün sürdüyü ittifaqdır. Kişi evin başçısı, idarə edənidir. Qadın isə onun qulluğunda duran, ona hörmət edən, “yuva”nın qurucusudur. Yoldaşına hörmət və ehtiram bir qadın kimi sənin də borcundur. Ailənin qədrini bil. Qayınananın, qayınatanın bir sözünü iki etmə, qulluqlarında dur. Onlar sənin böyüklərindir. Gələcək övladlarının bütün təlim-tərbiyəsi də səndən asılıdır.

Bu nəsihətlərlə izdivaclar daha uzunömürlü olardı. Nə qədər acı olsa da, deməliyəm ki, indiki bəzi valideynlər övladlarını ailə dəyərləri ilə bağlı düzgün tərbiyələndirmir, onları bu mövzuda düzgün istiqamətləndirmirlər. Bəzən ailə quran şəxslərin vəzifələrini layiqincə dərk etməməsi, səhv addımlar atmaları ilə nəticələnir. Ailə dəyərlərinə məhəl qoyulmur. Milli-mənəvi dəyərlər əhatəsində böyüməyib evlənən cütlüklər, təbii ki, bunu sabah dünyaya gələcək körpələrinə də aşılaya bilməyəcəklər. Bu zaman ailə dəyərləri milli dəyərlər çərçivəsindən çıxır, Avropa dəyərlərinə yelkən açır. Şahidi oluruq ki, bəzi ərköyün uşaqlar düz istiqamətləndirilmir, düzgün tərbiyə olunmurlar. Uşaqlara “müasir” geyimlər almaq, zehinlərinə hopan pis vərdişlərə göz yummaq, istədiklərini həyata keçirmək, onları azad buraxmaq, şöhrətpərəst böyütmək, balaca məsum beyinlərini əxlaq normalarına zidd olan verilişlərlə, filmlərlə, hətta uyğunsuz cizgi filmlərinə baxmalarına şərait yaratmaqla korlamaq heç də tərbiyə metodu deyil. Unutmayaq ki, Hindistan yazıçısı Mahatma Qandi nahaq yerə deməyib ki, “Azadlıq ifrat dərəcəsinə çatdıqda özbaşınalığa çevrilir”.

Düzgün tərbiyə vasitəsi uşaqlara kitabları sevməyi öyrətməkdir. Özlərindən böyüklərlə necə danışmağı, onlara hörmətlə yanaşmağı aşılamaqdır. Uşaqları vicdanlı, dürüst, şəxsiyyət kimi formalaşdırmaq, milli dəyərlərimizə sahib çıxmağı təlqin etməkdir.

*P.S. Körpələrin beyinləri yazılmamış ağ kağızdır. Onları düzgün istiqamətləndirmək valideyn adını, statusunu daşıyan hər bir insanoğlunun borcu və vəzifəsidir. Doğrudan da demokratik cəmiyyət olaraq ailə dəyərlərini unudanların, valideynlik missiyasını dərk etməyən hər kəsin buna ehtiyacı var. Sözüm, əsasən də, “İnstagram”, “Facebook”, “Whatsapp” və digər sosial şəbəkələrdən düzgün istifadə etməyi bacarmayan internet aludəçisinə çevrilmiş bəzi valideynlərədir. Bu sosial şəbəkələr elə bir zamanda meydana çıxdı ki, əlinə telefon alanlar bu fürsətdən lazımsız şəkildə istifadə etməyə başladılar. Milli dəyərlərimizə belə laqeyd valideynləri XXI əsrdə görmək istəmirik. Bütün gününü uşağın qayğısına qalan atalara, beşikdə laylay çalan, uşaqlarla oyun oynayan, onlara zaman ayıran analarımıza ehtiyac böyükdür. Uşaqların təlim-tərbiyəsində əsas məsuliyyət ananın üzərinə düşür. Analıq təkcə bioloji məfhum deyil, o həm də uca bir zirvədir. Analar dünyanın ən həssas, ən qüdrətli və cəsarətli varlıqlarıdır. Müqəddəs hiss, duyğudur. Ümumiyyətlə, valideynlik missiyası uşağı düzgün, vətənpərvər, milli ruhda, sədaqətli və vicdanlı vətəndaş kimi yetişdirməkdədir... Elə Mirzə Ələkbər Sabirin təbirincə desək, “Həqiqi ananın ən şərəfli bəzəyi ədəbli, tərbiyəli cocuqdur”.*

**Türkan HÜSEYNLİ**

*Məqalə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkil etdiyi “Milli dəyərlərimiz düşüncəmizdə” adlı esse müsabiqəsində fəxri fərmana layiq görülüb.*

---

*Muxtar Respublikada idmanın maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırıqlarına əsasən icra olunan işlərdən biri də çimərlik futbolu ilə bağlıdır.*

# Naxçıvanda ilk çimərlik futbol meydançası tikilir

Belə ki, ötən həftədən etibarən çimərlik futbolu meydançasının inşasına başlanılıb. Meydança Uzunoba gölünün ərazisində 40x30 metrlik sahəni əhatə edir. Hazırda ərazidə xüsusi texnika vasitələri ilə hamarlama işləri aparılır, ətrafa bordürlər düzülür. İnşaat işləri üçün lazımi miqdarda qum kütləsi gətirilib. Bu işlərdən sonra meydança xüsusi avadanlıqlarla xətlənəcək, kənarlara bannerlər yerləşdiriləcək. Həmçinin qapılar və ehtiyat oyunçular üçün skamyalar hazırlanıb.



İcra olunan işlər Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Futbol Federasiyasının nəzarəti ilə davam etdirilir.

Mövcud perspektivlər nəzərə alınaraq yeniyetmə və gənclərin bu idman növündə fəaliyyət göstərməsi, asudə vaxtlarının səmərəli təşkili məqsədilə meydançada çimərlik futbolu üzrə turnirlərin keçirilməsi planlaşdırılır.

---

# Voleybol üzrə yoldaşlıq görüşü keçirilib

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Voleybol Federasiyasının birgə təşkilatçılığı ilə 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə voleybol üzrə yoldaşlıq görüşü keçirilib.*



Uzunoba çimərliyində yerləşən voleybol meydançasında keçirilən görüşdə “Naxçıvan” və “Sədərək” komandaları üz-üzə gəlib.

Gərgin keçən görüşün ilk setində Sədərək voleybolçuları qələbə qazanıblar – 25:18. İkinci setdə üstünlüyü ələ alan naxçıvanlı voleybolçular yarışı 25:20 hesablı qələbə ilə başa vurublar. Son set daha gərgin idman mübarizəsi şəraitində keçib. Belə ki, sonadək əzmlə mübarizə aparan “Sədərək” komandası bu setdə də qalib gələrək (25:22) görüşü 2:1 hesablı qələbə ilə başa vurub.

Sonda hər iki komanda təşkilatçılar tərəfindən mükafatlandırılıb.

**Ceyhun MƏMMƏDOV**

---

# Dezinfeksiya tədbirləri davam etdirilir

Profilaktik tədbirlər məqsədilə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti tərəfindən, ümumilikdə, 45 kilometr və ya 580 min kvadratmetr yol və səkilər dezinfeksiya edilib.



Qeyd edək ki, Naxçıvan şəhərinin “Azərbaycan” məhəlləsi, Həzi Aslanov, Əliqulu Qəmküsar, Zərifə Əliyeva küçələri və onlara bitişik döngələr, Babək rayonunun Şıxmahmud kəndində ictimai iaşə obyektləri, inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası, tibb məntəqəsi, rabitə evi, məscid və mərasim evi dezinfeksiya edilib.

Şərur rayonunun Dəmirçi kəndinin əsas yolları, Kəngərli rayonunun Yurdçu və Xok kəndlərinin kənd mərkəzləri və əsas yollarında da dezinfeksiya işləri aparılıb.

---

# Günvurmadan özümüzü necə qoruyaq

*Yay mövsümündə havanın hərarətinin yüksək olması çimərliyə gedən insanların sayının artması ilə müşahidə olunur. Günün çox hissəsini çimərlikdə qızmar günəş altında keçirmək insanları günvurma kimi real təhlükə ilə üzləşdirə bilər. Günəş ildən-ilə daha çox ultrabənövşəyi şüalar saçdığına görə son zamanlar günvurma faktları geniş yayılıb. Əhalinin belə təhlükədən qorunması məqsədilə maarifləndirilməsi olduqca vacibdir.*

Günvurma günəş şüalarının uzun müddət bədənə təsiri nəticəsində meydana gəlir, əsasən, gün altında başıaçıq şəkildə çox qaldıqda bu proses özünü kəskin şəkildə göstərir. Nəticədə, günəş şüalarının təsirindən beyinin qan damarları genişlənir, beyinə qan axını artır, qan dövranı pozulur. Belə halda zəiflik, ürəkbulanma, başgicəllənmə, güclü baş ağrısı, gözlərin qaralması, qulaqlarda küy, təngnəfəslik, nəbzin sürətlənməsi, hətta hərarətin 40 $^{0}$C və ya daha çox yüksəlməsi kimi əlamətlər baş verir. Qeyd etdiyimiz əlamətlər bəzi hallarda dərhal, bəzi hallarda isə günəş altında qaldıqdan bir neçə saat sonra baş verə bilər. Bu cür hallara ən çox uşaqlar, artıqçəkili insanlar, ürək-damar və endokrin xəstəlikləri olanlar məruz qalırlar.



İnsanlar günvurmadan qorunmaq üçün uzun müddət günəş şüalarının altında dayanmamalı, papaq və ya dəsmalla başlarını örtməli, növbəli şəkildə çimməli və qumda dincəlməli, günün isti vaxtında uzunmüddətli yürüşlər etməməlidir. Bu kimi profilaktik tədbirlər insanları günəş şüalarının zərərli təsirindən qorumağa bilavasitə kömək edəcəkdir.

Günvurma zamanı ilk yardımın göstərilməsi zərərçəkmişin sonrakı müalicəsinə birbaşa təsir göstərir. Bu səbəbdən də ilk yardımın vaxtında və düzgün aparılması mühüm əhəmiyyət kəsb edir. Belə ki, zərərçəkən dərhal kölgəlik və sərin yerə aparılmalı, boynunu və döş qəfəsini sıxan paltarlardan azad edilməli, rahat vəziyyətdə uzadılmalı, başına, boyun və sinəsinə soyuq kompres qoyulmalıdır. Huşunu itirmiş zərərçəkmişin tənəffüsü dayanarsa, ona süni tənəffüs vermək lazımdır.

Əlbəttə ki, günvurmadan qorunmaq onun fəsadlarını aradan qaldırmaqdan daha asandır. Belə ki, insanlar yay aylarında, çoxlu miqdarda maye qəbul etməlidirlər. Günəş şüaları altında çox qalmaq olmaz. Açıqrəngli baş örtüyü və yaxud çətirdən istifadə olunmalı, düzgün qidalanmalı, əsasən, meyvətərəvəzdən kifayət qədər istifadə edilməlidir.

Uşaqlarda günvurma qeydə alınarsa, dərhal zərərçəkəni üfüqi vəziyyətdə uzadaraq başına soyuq su ilə isladılmış dəsmal qoymaq və çoxlu maye içirmək lazımdır. Bunun üçün 1 litr suya 2 xörək qaşığı şəkər tozu, 1/2 çay qaşığı natrium xlorid və ya natrium bikarbonat əlavə edilməsi tövsiyə olunur.

Zərərçəkənə ilk yardım göstərdikdən sonra onu dərhal yaxınlıqdakı tibb müəssisəsinə çatdırmaq lazımdır.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47

Şöbələr: 545-81-44, 545-51-18

Müxbirlər: 545-75-21, Faks: 544-52-52

E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 460